# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASININ İCLASININ

# P R O T O K O L U

## № 01

Bakı şəhəri | 19 fevral 2021-ci il

Sədrlik edirdi: V.Məmmədov

İştirak edirdilər:

Şuranın üzvləri:

Q.Əliyev – Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri;

R.Süleymanov – İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri;

V.Məmmədəlizadə – Keyfiyyətin idarə edilməsi və metaməlumatlar şöbəsinin müdiri;

G.Məmmədov – Kənd təsərrüfatı statistikası şöbəsinin müdiri;

A.İbrahimova – Ticarət statistikası şöbəsinin müdiri;

H.Dadaşov – Qiymət statistikası şöbəsi müdirinin müavini.

Katibliyin üzvləri:

V.İsmayılov – İnsan resursları və hüquq şöbəsinin Hüquq təminatı sektorunun müdiri;

O.Sadıqov – Rejim və məxfi kargüzarlıq şöbəsinin məsləhətçisi.

Dəvət olunanlar:

Nemət Xuduzadə – Əmək statistikası şöbəsinin müdiri;

Elnur Ağalıyev – Ümumi şöbənin müdir müavini;

Telman Quliyev – Bakı Şəhər Statistika İdarəsinin sektor müdiri;

Elnur Abbasov – Dövlət İmtahan Mərkəzinin böyük məsləhətçisi (videogörüntü vasitəsilə qoşuldu).

## Gündəlikdə duran məsələlər

| | | |
|---|---|---|
| 1. | Məmmədova Aydan Tariyel qızının 05 avqust 2020-ci ildə elan edilmiş müsabiqə üzrə müsahibənin nəticəsindən apellyasiya şikayətinə baxılması haqqında | E.Ağalıyev |
| 2. | Xudaquliyev Loğman Zahid oğlunun 05 avqust 2020-ci ildə elan edilmiş müsabiqə üzrə müsahibənin nəticəsindən apellyasiya şikayətinə baxılması haqqında | E.Ağalıyev |

**Eşidildi:**

**V.Məmmədov** – Bildiyiniz kimi, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1474 nömrəli Fərmanının 3.4.1-ci yarımbəndinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarında, onların yanında yaradılan dövlət agentliklərində və dövlət xidmətlərində, habelə mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlarda dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən verilən şikayətlər – həmin mərkəzi icra hakimiyyəti orqanlarında yaradılmış apellyasiya şuraları tərəfindən baxıla bilər. Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının bugünkü iclasının gündəliyinə Məmmədova Aydan Tariyel qızının və Xudaquliyev Loğman Zahid oğlunun şikayətləri ilə bağlı iki məsələ daxil olub. Birinci məsələ barədə məruzə etmək üçün söz Elnur Ağalıyevə verilir.

**Çıxış etdi: Ümumi şöbənin müdir müavini – E.Ağalıyev**

Bildirirəm ki, namizəd Məmmədova Aydan Tariyel qızı Bakı Şəhər Statistika İdarəsinin Sosial statistika sektorunda məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2020-ci il 05 avqust tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2020-ci il dekabrın 04-də Bakı Şəhər Statistika İdarəsinin sektor müdiri Telman Quliyev, Dövlət İmtahan Mərkəzinin böyük məsləhətçisi Elnur Abbasov və müstəqil ekspert Fərhad Mirzəyevdən ibarət komissiya tərəfindən keçirilmişdir. Məmmədova Aydan Tariyel qızına müsahibə komissiyasının üzvlərindən T.Quliyev 12 bal, F.Mirəzyev 10 bal, E.Abbasov isə 12 bal vermiş və nəticədə iştirakçı 11,3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1474 nömrəli Fərmanının 3.4.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 10.12.2020-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasında daxil olmuş şikayətlə əlaqədar müsahibə komissiyasının üzvlərinin rəyləri nəzərdən keçirilmişdir. Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Elnur Abbasovun rəyinə əsasən namizəd ümumi və vəzifə proqramı üzrə verilən sualların əksəriyyətinə natamam cavab vermişdir. Ümumiyyətlə, namizədin bilik səviyyəsi, peşə hazırlığı, ümumi dünayagörüşü vəzifənin tutulma şərtlərinə uyğun deyil. Müstəqil ekspert Fərhad Mirzəyevin rəyinə əsasən namizəd ixtisası üzrə olan mühüm anlayışlara dair verilən suallara yetərli cavab verə bilməmiş, vəzifə proqramı üzrə olan sualları zəif cavablandırmışdır.

**V.Məmmədov** – DİM-in nümayəndəsi Elnur Abbasov imtahana videogörüntü vasitəsilə qoşulmuşdur. Elnur müəllim, namizədin müsahibədə iştirakı ilə bağlı nə deyə bilərsiniz?

**E.Abbasov** – Mən rəydə də qeyd etmişəm ki, namizəd peşə hazırlığı və vəzifə bilikləri ilə bağlı ona verilmiş suallara tam və ətraflı cavab verməmiş, eyni zamanda bir çox sualları səhv cavablandırmışdır. İmtahanın videoyazısına baxsaq dediklərimin əyani şahidi ola bilərsiniz ki, namizəd haqqında ədalətli qərar verilmişdir.

**V.Məmmədov** – Müsahibə komissiyasının üzvü kimi iştirak etmiş Bakı Şəhər Statistika İdarəsinin sektor müdiri Telman Quliyev də şuranın iclasında iştirak edir. Telman müəllim, zəhmət olmasa siz də namizəd haqqında münasibət bildirəsiniz.

**T.Quliyev** – Müsahibə zamanı müəyyən texniki problem yaransa da, bu, qısa zamanda aradan qaldırılmışdır. Mən inanmıram ki, həmin problem namizədin biliyini nümayiş etdirməyə maneə yaratsın. Namizəd ona təqdim edilən suallara ya səhv cavab vermiş, ya da natamam cavablandırmışdır. Mən müsahibə komissiyasının namizəd haqqında verdiyi yekun rəyin ədalətli olduğu qənaətindəyəm.

**V.Məmmədov** – Şura üzvləri xahiş edirəm məsələ ilə bağlı öz rəyinizi bildirəsiniz.

**R.Süleymanov** – Vahab müəllim, namizəd keçid balından olduqca aşağı bal yığmışdır. Rəyləri oxudum, namizəd haqqında səsləndirilən fikirlərlə tanış oldum. Namizəd ona təqdim edilən suallara çox zəif cavab vermişdir. Fikrimcə yaranmış texniki problemin imtahanın gedişatına elə bir təsiri olmamışdır. İmtahan yarım saat gec başlasa belə, namizəd hazırlıqlı olduqda sualları cavablandıra bilərdi. Fikrimcə komissiyanın verdiyi qərar obyektivdir.

**Q.Əliyev** – İmtahan komissiyasının üzvlərindən DİM-in nümayəndəsi və müstəqil ekspertin rəylərini oxudum. Telman müəllimin də fikirləri verilmiş rəylərlə üst-üstə düşür. Görünür ki, namizəd aşağı səviyyədə hazırlaşmışdır və onun hazırlıq səviyyəsi vəzifənin tutulması şərtlərinə uyğun deyildir.

**V.Məmmədəlizadə** – Namizəd iki komissiya üzvü tərəfindən aşağı balla qiymətləndirilmişdir. Rəylərlə tanış oldum, Elnur müəllimin də fikirlərini dinlədim, namizədin peşə hazırlığı, ixtisası üzrə bilik səviyyəsi qənaətbəxş deyildir.

**G.Məmmədov** – Mən namizədin keçid balından çox aşağı bal toplamasının texniki səbəblə bağlı olduğunu düşünmürəm. Müstəqil ekspert F.Mirzəyevin, DİM-in nümayəndəsi E.Abbasovun rəylərindən də görünür ki, namizədin peşə hazırlığı, vəzifə üzrə bilikləri çox zəif olmuşdur.

**H.Dadaşov** – Rəylərdən göründüyü kimi, namizəd peşə hazırlığı və vəzifə proqramı üzrə ona təqdim edilən suallara zəif cavab vermişdir. Namizəd qismən ümumi dünyagörüşü ilə bağlı olan suallara cavab versə də, bu həmin vəzifənin tutulma şərtlərini ödəmir. Mən ona görə də namizəd haqqında verilən yekun qərarın obyektiv olduğu qənaətindəyəm.

**A.İbrahimova** – Namizəd haqqında deyilən fikirlərlə tam razıyam, düşünürəm ki, onun haqqında verilən qərar ədalətlidir.

***Gündəliyə çıxarılmış məsələ Apellyasiya Şurasının üzvləri tərəfindən səsə qoyuldu və yekdilliklə Məmmədova Aydan Tariyel qızının Bakı Şəhər Statistika İdarəsinin Sosial statistika sektorunda məsləhətçi vəzifəsinə uyğun olmadığı bildirildi.***

**Qərara alındı:**

1. Məmmədova Aydan Tariyel qızının 10 dekabr 2020-ci il tarixli apellyasiya şikayəti təmin edilməsin və Bakı Şəhər Statistika İdarəsinin Sosial statistika sektorunda məsləhətçi vəzifəsinin tutulması üçün 2020-ci il dekabrın 04-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.
3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Eşidildi:**

**V.Məmmədov** – İkinci məsələ barədə məruzə etmək üçün söz E.Ağalıyevə verilir.

**E.Ağalıyev** – Namizəd Xudaquliyev Loğman Zahid oğlu Tərtər Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2020-ci il 05 avqust tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2020-ci il noyabrın 30-da Dövlət Statistika Komitəsi aparatının Əmək statistikası şöbəsinin müdiri Nemət Xuduzadə, Dövlət İmtahan Mərkəzinin baş məsləhətçisi Rövşən Əsədov və müstəqil ekspert Mais Köçərlidən

ibarət komissiya tərəfindən keçirilmişdir. Xudaquliyev Loğman Zahid oğluna müsahibə komissiyasının üzvlərindən N.Xuduzadə 13 bal, M.Köçərli 14 bal, R.Əsədov isə 13 bal vermiş və nəticədə iştirakçı 13,3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1474 nömrəli Fərmanının 3.4.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 17.12.2020-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasında daxil olmuş şikayətlə əlaqədar müsahibə komissiyasının üzvlərinin rəyləri nəzərdən keçirilmişdir. Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Rövşən Əsədovun rəyinə əsasən namizədin peşə hazırlığı və nəzəri biliklərinin tətbiqi bacarığı zəifdir. Namizəd müsahibə proqramı üzrə ona təqdim edilən sualların əksəriyyətinə natamam və ya səhv cavab vermişdir və o, iddia etdiyi vəzifənin tələblərinə uyğun deyildir. Müstəqil ekspert Mais Köçərlinin rəyinə əsasən namizəd peşə hazırlığının yoxlanılması məqsədilə verilən sualları tələb olunan səviyyədə cavablandırmamış, lakin dünyada və ölkədə baş verən hadisələrə dair məlumatlılığı yetərli olmuşdur.

**V.Məmmədov** – İclasda müsahibə komissiyasının üzvü kimi iştirak etmiş Dövlət Statistika Komitəsi aparatının şöbə müdiri Nemət Xuduzadə iştirak edir. Nemət müəllim, namizədin müsahibədə iştirakı ilə bağlı nə deyə bilərsiniz?

**N.Xuduzadə** - Namizəd Xudaquliyev Loğman Zahid oğlu tərəfimdən verilən orta və aşağı səviyyəli suallara belə tam cavab verə bilməmişdir. Namizədin vakant vəzifə üzrə peşə hazırlığı, nəzəri bilikləri zəifdir, ümumi dünyagörüşü orta olsa belə, o, iddia etdiyi vəzifənin tələblərinin şərtlərinə cavab verəcək bilik nümayiş etdirməmişdir.

**V.Məmmədov** – Şura üzvləri rəyləri nəzərdən keçirmisiniz, Nemət müəllimin səsləndirdiyi fikri dinlədiniz, xahiş edirəm məsələ ilə bağlı öz rəyinizi bildirəsiniz.

**R.Süleymanov** – Namizədin yekun qiymətləndirmə balı 13.3 - dür və onun haqqında yazılan rəylərdən, səsləndirilən fikirlərdən də aydın olur ki, o, iddia etdiyi vəzifənin tələblərinə hazırlıqlı deyil. Mən müsahibə komissiyasının namizəd haqqında çıxardığı qərarla tam razıyam.

**Q.Əliyev** – Namizəd haqqında DİM-in nümayəndəsinin və müstəqil ekspert M.Köçərlinin rəyi, Nemət müəllimin fikirləri, keçid balından kifayət qədər aşağı bal toplaması mənə deməyə əsas verir ki, namizəd Loğman Xudaquliyev iddia etdiyi vəzifənin tələblərinə cavab verəcək bilik nümayiş etdirə bilməmişdir.

**V.Məmmədəlizadə** – Müsahibə komissiyasının rəylərini oxudum. Namizəd ona təqdim edilən suallara natamam və yaxud səhv cavablar vermişdir ki, nəticədə o, keçid balına yaxın bal toplaya bilməmişdir. Hesab edirəm ki, namizəd haqqında verilən yekun rəy obyektivdir.

**G.Məmmədov** – Müsahibə komissiyasının rəyləri ilə tanış oldum. Rəylərdən və Nemət müəllimin namizəd haqqında səsləndirdiyi fikirlərdən aydın oldu ki, namizədin ümumi hazırlığı iddia etdiyi vəzifə üçün qənaətbəxş deyil.

**H.Dadaşov** – Fikrimcə, namizəd haqqında səsləndirilən fikirlər və rəylər ədalətlidir. Mən ekspert M.Köçərlinin rəyini diqqətlə oxudum, namizəd ona təqdim edilən sualların böyük əksəriyyətinə cavab verə bilməmişdir.

**A.İbrahimova** – Apellyasiya şurasının səsləndirdiyi fikirlərlə razıyam, düşünürəm ki, imtahan komissiyasının verdiyi qərar obyektivdir.

***Gündəliyə çıxarılmış məsələ Apellyasiya Şurasının üzvləri tərəfindən səsə qoyuldu və yekdilliklə Xudaquliyev Loğman Zahid oğlunun Tərtər Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinə uyğun olmadığı bildirildi.***

**Qərara alındı:**

1. Xudaquliyev Loğman Zahid oğlunun 17 dekabr 2020-ci il tarixli apellyasiya şikayəti təmin edilməsin və Tərtər Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2020-ci il noyabrın 30-da keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.
3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**